**UDC:** 32.; 323.
**LBC:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 427
10.33864/2617-751X.2026.v9.i1.64-76

# MYSTICAL ELEMENTS IN THE RELIGIOUS AND CULTURAL SYSTEM OF PRE-ISLAMIC ARABS

**Aida Gasimova***

**Abstract.** This study examines the mystical elements in pre-Islamic Arab society and their role as formative influences on the development of Islamic Sufism. While much of European Orientalist scholarship of the 19th and 20th centuries often viewed Sufism as a foreign or externally introduced phenomenon, more recent research emphasizes its intrinsic connection to Islam, the importance of considering pre-Islamic socio-religious contexts was forgetten. This article is a part of my research that explores ascetic tendencies, mystical practices, and spiritual experiences among the Arabs of the Jahiliyyah period, drawing attention to early forms of piety, meditation, and esoteric exercises that prefigure Sufi doctrines. It investigates the influence of surrounding cultures, including Christian and Jewish mysticism, as well as Greek philosophical currents, while stressing that these external elements interacted with a pre-existing mystical substratum within Arab society rather than generating Sufism in isolation. The role of divination, mystical medicine, and encounters with supernatural phenomena are also discussed as integral components of the mystical worldview. Pre-Islamic Arabs’ exposure to monotheistic, polytheistic, and esoteric traditions, facilitated by trade networks and intercultural exchanges, created a fertile environment for spiritual exploration, which subsequently informed the emergence of Islamic Sufism. By tracing these pre-Islamic mystical trends, the study seeks to clarify the socio-cultural foundations of Sufism, highlighting the continuity between earlier Arab spiritual practices and the ascetic, esoteric, and devotional dimensions of Islamic mysticism.

**Keywords:** Sufism, Jahiliyyah period, mysticism, occult sciences, mystical medicine, extispicy

---

* Professor of the Department of Arabic Philology, Baku State University; Baku, Azerbaijan
E-mail: aidagasimova@bsu.edu.az
https://orcid.org/0000-0001-6358-2966

**To cite this article:** Gasimova, A. [2026]. MYSTICAL ELEMENTS IN THE RELIGIOUS AND CULTURAL SYSTEM OF PRE-ISLAMIC ARABS. *“Metafizika” journal, 9*(1), pp.64-76.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.64-76
***Article history:***
**Received**: 11.12.2025 **Revised**: 05.01.2026 **Accepted**: 01.02.2026 **Published**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 32.; 323.
**ББК:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 е)64
**MJ №** 427
10.33864/2617-751X.2026.v9.i1.64-76

# МИСТИЧЕСКИЕ ЭЛЕМЕНТЫ В РЕЛИГИОЗНО-КУЛЬТУРНОЙ СИСТЕМЕ ДОИСЛАМСКИХ АРАБОВ

**Аида Гасимова***

**Абстракт.** В данной работе рассматриваются мистические элементы, присутствовавшие в доисламском арабском обществе, и их роль как факторов, формировавших развитие исламского суфизма. В то время как значительная часть европейской ориенталистской науки XIX–XX веков трактовала суфизм как чуждое или извне привнесённое явление, а более поздние исследования подчёркивают его органическую связь с исламом, важность учёта доисламских социорелигиозных контекстов оказалась в значительной степени упущенной. Статья исследует аскетические тенденции, мистические практики и духовный опыт арабов периода джахилийи, обращая внимание на ранние формы благочестия, медитации и эзотерических практик, предвосхищающих доктрины суфизма. Особое внимание уделяется влиянию окружающих культур, включая христианскую и иудейскую мистику, а также греческую философию, при этом подчёркивается, что внешние элементы взаимодействовали с уже существующей мистической основой арабского общества. Рассматриваются практики гадания, элементы мистической медицины и представления о контакте с сверхъестественными силами как составляющие мистического мировоззрения. Прослеживая доисламские мистические тенденции, работа стремится прояснить социально-культурные основания суфизма, выявляя преемственность между ранними арабскими духовными практиками и аскетическими, эзотерическими аспектами исламского мистицизма.

**Ключевые слова:** суфизм, период джахилии, мистицизм, оккультные науки, мистическая медицина, экстиспиция

---

* Профессор кафедры арабской филологии Бакинского государственного университета; Баку, Азербайджан
E-mail: aidagasimova@bsu.edu.az
https://orcid.org/0000-0001-6358-2966
**Цитировать статью:** Гасимова, А. [2026]. МИСТИЧЕСКИЕ ЭЛЕМЕНТЫ В РЕЛИГИОЗНО-КУЛЬТУРНОЙ СИСТЕМЕ ДОИСЛАМСКИХ АРАБОВ. *Журнал «Metafizika», 9*(1), с.64-76.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i1.64-76
***История статьи:***
**Поступила**: 11.12.2025 **Переработана**: 05.01.2026 **Принята**: 01.02.2026 **Опубликована**: 15.03.2026
**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 32.; 323.
**KBT:** 63.3(2)6-6; 63.3 (2)64; 63.3(5 e)64
**MJ №** 427
10.33864/2617-751X.2026.v9.i1.64-76

# CAHİLİYYƏT ƏRƏBLƏRİNİN DİNİ-MƏDƏNİ SİSTEMİNDƏ MİSTİK ELEMENTLƏR

**Aida Qasımova***

**Abstrakt.** Bu məqalədə islamqədərki ərəb cəmiyyətində mövcud olan mistik elementlər və onların İslam sufizminin formalaşmasına təsiri araşdırılır. XİX əsrdən etibarən sufizmə dair mənbələrlə daha yaxından tanış olmağa başlamış Avropa şərqşünaslığında İslam mistisizminin qaynaqları barədə mülahizələr səslənməyə başlamış, tədqiqatçıların böyük əksəriyyəti İslamın öz mahiyyətini düzgün anlamadığından sufizmi “qumsal İslam səhrasına kənardan gətirilmiş bitki” hesab etmişlər. Lakin müasir tədqiqatlar bu cərəyanın İslamla üzvi bağlılığını vurğulayır. Bu məqalə bizim Cahiliyyət dövrü ərəblərinin asketik meyllərini, mistik təcrübə və mənəvi yaşantılarını öyrənən, onların meditasiya və ezoterik təcrübələrinə diqqət yetirən tədqiqatımızın bir hissəsidir. Burada xristian və yəhudi mistikası, həmçinin yunan fəlsəfəsi kimi ətraf mədəniyyətlərin təsiri araşdırılır və qeyd olunur ki, bu xarici elementlər ərəb cəmiyyətində artıq mövcud olan mistik substratla qarşılıqlı şəkildə fəaliyyət göstərmişdir. Qədim ərəblərin öncəgörmələrlə bağlı təcrübəsi, mistik təbabəti və fövqəltəbii aləmlə təmas təcrübələri mistik dünyagörüşün tərkib hissələri kimi öyrənilir. İslamqədərki mistik meyllərin izlənilməsi sufizmin sosial-mədəni əsaslarını aydınlaşdırmağa, erkən ərəb mənəvi təcrübələri ilə islam mistisizminin asketik və ezoterik yönümlü cəhətləri arasında varislik əlaqələrini üzə çıxarmağa xidmət edir.

**Açar sözlər:** Sufizm, Cahiliyyət dövrü, mistika, okkult elmlər, mistik təbabət, ekstispisi

---

* Bakı Dövlət Universitetinin Ərəb filologiyası kafedrasının professoru; Bakı, Azərbaycan
E-mail: aidagasimova@bsu.edu.az
https://orcid.org/0000-0001-6358-2966

**Məqaləyə istinad:** Qasımova, A. [2026]. CAHİLİYYƏT ƏRƏBLƏRİNİN DİNİ-MƏDƏNİ SİSTEMİNDƏ MİSTİK ELEMENTLƏR. *“Metafizika” jurnalı, 9*(1), səh.64-76.
https://doi.org/10.33864/2617-751X.2026.v9.i7.64-76
**Məqalənin tarixçəsi:**
**Daxil olub**: 11.12.2025 **Yenidən baxılıb**: 05.01.2026 **Təsdiqlənib**: 01.02.2026 **Dərc olunub**: 15.03.2026

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Bu yazıdan məqsəd islamaqədərki ərəb cəmiyyətində mövcud olmuş mistik elementlərə işıq salmaq, onların İslam təsəvvüfünün qaynaqları cərgəsində yerini dəqiqləşdirməkdir. Bir sıra tədqiqatçılar [4, 9-12; 12, 87-95; 9, 25-29; 19, 319-321; 5, 61; 18,16] İslam təsəvvüfünün qaynaqları barədə fikir söyləmişlər. Burada həmin bəhsləri təkrarlamayaraq bəzi məqamların üzərində dayanmaq istərdik.

XIX əsrdən etibarən sufi ədəbiyyatı və sufizmə dair mənbələrlə daha yaxından tanış olmağa başlamış Avropa şərqşünaslığında İslam mistisizminin qaynaqları barədə mülahizələr səslənməyə başlamış, tədqiqatçıların böyük əksəriyyəti İslamın öz mahiyyətini düzgün anlamadığından sufizmi "qumsal İslam səhrasına kənardan gətirilmiş bitki" [4, 9-12] hesab etmiş, yəni belə ülvi, uca bir ideologiyaya malik fikir axınını heç bir vəchlə Islamla bağlamaq istəməmiş, bu cür cəhdlər baş qaldırdıqda isə (məs: alman ilahiyyat alim, protestant məzhəbindən olan F.Tholuk sufizmin Məhəmməd peyğəmbərin öz mistisizmindən doğduğunu bildirmişdir.) bunu anlaşılmazlıqla qarşılamışlar [1, 20; 4, 9]. Hətta sufizmin kökünü sami xalqlarından uzaqda, Yaxın Şərqdən çox-çox kənarlarda arilər- fars və hindlilər, bəzən də yapon və çinlilər içərisində axtaranlar da olmuşdur [4, 9-11]. Lakin sonrakı tədqiqatlarda Sufizmin islamin özündən qaynaqlanması fikri üstünlük təşkil etmiş, bununla belə, onun islamaqədərki cəmiyyətlə bağlılığı, onun bu cəmiyyətdə mövcud olan mistik yönümlü hərəkatlarla İslamin sintezindən qaynaqlanması nəzərə alınmamışdır. Halbuki, Cahiliyyət dövrünün əqli-mənəvi həyatı ilə tanışlıq belə bir fərziyyənin doğruluğunu təsdiqləyir.

E.Bertels təsəvvüfə qnostisizmin, neoplatonizmin və manixeyçiliyin təsirini qəbul edib bildirir ki, əsas məsələ bu cərəyanların İslamla qarşılaşması faktında deyil, onların hansı şəraitdə İslam mühitinə nüfuz etməsinin müəyyənləşməsindədir [9, 14]. Bertels İslamdan əvvəlki dövrə nəzər salmasa da, İslam mistisizminin yaranmasını Əməvilər dövrü cəmiyyətindəki narazı ünsürlərlə bağlayaraq ilk sufilərin əməvilərin siyasi kursuna müxalifətdə dayanan mühəddislər içərisindən çıxdığını bildirir, Onun fikrincə, məhz tabiinlər arasında başlamış asketizm sufizmin rüşeymi sayılmalıdır [9, 15], o, zahidlik əhvali-ruhiyyəsinin hələ islamdan öncə ərəblər arasında mövcud olması faktını, demək olar ki, nəzərə almır. Bununla belə, Bertels İranda sufizmin görünməmiş bir surətlə inkişafından danışarkən bu hərəkatın ilk apostollarının Xorasana gəlmiş ərəb hərbiçilərinin olmasını qeyd etməyi unutmur və beləliklə də təsəvvüfü məhz ərəb zəminınə bağlamış olur [9, 65]. Hər bir halda, ilk cihadçılar özləri də "muxadram" sayıla bildiyindən, yəni iki dövrdə- cahiliyyət və islam dövründə yaşadığından, yenə də hərəkatın köklərini İslamdan əvvəlki mistik həyatla bağlaya bilərik.

V.Bartold Məhəmməd peyğəmbərin yaxın ətrafında – səhabələr arasında mistik yaşantıların mövcudluğuna diqqəti cəlb edib bildirir ki, Məhəmməd peyğəmbər və imam Əli ac qalma və pəhrizkarlığı təcrübədən keçirir, bu məqsədlə qarınlarına daş bağlayırdılar. Xəlifə Ömər isə ölümündən azacıq öncə ilahi bir xof halı yaşamışdır [Бартольд, 114]. İslamdan öncə həniflər arasında da pəhrizkarlıq təcrübədən keçirilmişdir.

Sufizmin qaynaqlarının müəyyənləşdirilməsi məsələsində A.Knışın mülahizələri maraq doğurur. O, ilk baxışdanca xristian, yəhudi və buddizm mistikası ilə oxşar cəhətləri üzə çıxan sufizmin daxilində cücərti tapdığı İslamla sıx bağlılığının, onun məhz bu dindən qaynaqlanmasının məntiqiliyini bildirir. “Sufi” sözünün adi zahidlərin, “Allah adamları” olan mistiklərin geydiyi yun geyimi bildirməsini qeyd edən alim hələ İslamdan əvvəl Suriyada və Ərəbistan yarımadasının şimalında sərgərdan xristian rahiblərinin və anaxoretlərin məhz bu adla adlanmasını bildirir [12, 87]. Əbu Zərr (v. 652), Əbu Dərda (v. 625), onun həyat yoldaşı Ümmü’d-Dərda, Səlman əl-Fərisi (v. 655), Hüzəyfə bin əl-Yəman (v. 657) və İmran ibn əl-Hüseyn əl-Xüzai (v. 672) – bunlar Peyğəmbərin yaxın çevrəsinə mənsub olan erkən zühd sahibləri idilər. Sufi ənənəsi onları “sufizmin özü yaranmazdan əvvəlki sufilər” (avant la lettre) kimi təqdim edir. Sufizmin sonrakı nümayəndələri bu səhabələri sufi ənənəsi ilə bağlamaq üçün onlara yun paltar geyinmək adətini aid edirdilər. Knış təsəvvüfün kökündə dayanan asketik hərəkatın demək olar ki, İslamla bir vaxtda yarandığını və artıq Məhəmməd peyğəmbərin yaxın əhatəsindən olan səhabənin zahidliyə olan meylinin və onların yun əba geyinməsinin müsəlman ədəbiyyatinda qeyd olunduğunu bildirir [13, 11].

Oxşar fikirlər Nəsib Göyüşovun tədqiqatlarında da səslənir. O bildirir ki, təsəvvüfün bir sıra nişanələri ayrı-ayrı mədəniyyətlərdə, o cümlədən şamanizm, zərdüştlük, buddizm və hind mistikası, yəhudilik və xaçpərəstlik, qnostisizm və neoplatonizmdə müşahidə edilsə də o, həmin mədəniyyətlərdən alınma cəhətlərin birləşməsindən yaranan bir cərəyan olmayıb, Quranın öz ruhundan və İslam mühitindən doğan, eyni zamanda özgə mədəniyyətlərin həmin ruha uyğun məqamları ilə uzlaşan və zənginləşən dini-mistik və əqli-mənəvi bir cərəyandır [1, 20]. Qeyd edək ki, İslam özü Cahiliyyət adlanan mühitin yetişdirdiyi bir din olub onunla sıx tellərlə bağlıdır. Bu fakt özü İslam daxilində yaranmış cərəyanları da İslamdan əvvəlki mühitlə bağlayır.

E.ə. IV əsrdə artıq Suriyada və Misirdə öz icmaları olan yun geyimli xristian mistiklərinin sufizmin yaranmasına təsirini qeyd edən İ.Filştinski daha irəli gedərək asketizmin hələ İslamdan əvvəl ərəblər arasında yayılmasını, bunun nəticəsi kimi cahiliyyət şerində mömin zahid obrazının yaranmasını xüsusı vurğulayır və göstərir ki, İslamın yaranmasından sonra mömin müsəlmanlar arasında xristian rahiblərinin təsiri altında bu hərəkat daha da güclənmişir [19,

318]. İdris Şah da “sufi” anlamının hələ Məhəmməd peyğəmbərdən əvvəl mövcud olmasına diqqəti cəlb edir [5, 56].

Sufizmə dair çoxsaylı əsərlər işərisindən misal gətirdiyimiz bu fikirlər bir çox müəlliflərin təsəvvüfün köklərini birbaşa olmasa da, dolayısı ilə İslamın yarandığı cəmiyyətdə axtardığına dəlalət edir. Təəssüf ki, ara-sıra səslənən bu fikirlər inkişaf etdirilməmiş, islamdan öncəki cəmiyyətdə mövcud olan mistik tendensiyalar tədqiqata cəlb olunmamışdır.

**2.İslamaqədərki cəmiyyətdə mistik elementlər**

Bu yazıdan məqsəd islamaqədərki ərəb cəmiyyətində mövcud olan mistik zümrələr, onların ilahi nurlanma və mistik kamilləşmə yolundakı təcrübə və hazırlıqları, ekstaza çatmaq yolları, mistik yaşantılarını ifadə etmə üsulları barədə məlumat vermək və bu hərəkatın məruz qala biləcəyi kənar təsirləri (xristian, yəhudi mistisizmi, yunan fəlsəfəsi və s.) müəyyənləşdirməkdir. Bizim fikrimizcə, Islam təsəvvüfünə olan kənar təsirlər – xristian, yəhudi mistisizmi, buddizm, qnostisizm, neoplatonizm və s. hərəkatın bütün inkişafı boyu özünü göstərsə də, bu təsirlər ilk öncə islamaqədərki cəmiyyətdə yayılıb-yayılmaması müstəvisində araşdırılmalıdır. Məhz buna görə də, xristian və yəhudi mistisizminin islamaqədərki ərəb cəmiyyətində hansı səviyyədə özünü biruzə verməsinə nəzər salıınmalı, bəzi fəlsəfi təlimlərin ərəblərə İslamdan əvvəl məlum olub-olmaması məsələsi araşdırılmalıdır. Tədqiqat prosesində bəzi sufi simvol və atributlarının (xirqə, əsa, qövs, quşlarla bağlı simvolizm və s.) islamaqədərki mədəniyyətdəki yeri də müəyyənləşdirilməli və onların təsəvvüfdə kəsb etdiyi mənalarla paralelllər aparılmalıdır. Ayrıca olaraq, mistik əhvali-ruhiyyənin tərənnümündə cahiliyyət şerinin yeri də müəyyən olmalıdır.

Ruhi-mənəvi bir hadisə olmaqla mistisizmin inkişaf etmiş formalarının, adətən, yüksək ezoterik biliklərə və mükəmməl konsepsiyalara malik dini-fəlsəfi özülə söykənməsi məlumdur. Yəni Allahın – Mütləq Varlığın transtsendent mahiyyətini qəbul edən və onun dərkini əsas amal bilən sistemlərdə mistisizmin həm ideya-fəlsəfi və psixoloji, həm də təcrübi baxımdan daha yüksək səviyyəsi nəzərə çarpır. Bu cür bilik və konsepsiyalardan məhrum olan bir sıra arxaik cəmiyyətlərdə isə, olsa-olsa hələ sistem halina düşməmiş mistik təcrübə və təmayüllərdən, cəmiyyətdə özünə o qədər də yer etməmiş bəzi biliklərdən söhbət gedə bilər. Cahiliyyət dövrü ərəb cəmiyyətində ruhani-mənəvi durumun rəngarəngliyi, “sami xalqlarına xas olan bütpərəstliyin axırıncı qalası olan Ərəbistanda” (ifadə E.Rezvanındır) vəhdaniyyət dinlərinin də müəyyən intişar tapması burada yaranan mistik təmayüllərə də əlvan bir don geyindirir, nəticədə həm arxaik cəmiyyətlərə xas olan qaba və sadə mistikanı, həm də Vahid olan Allahla bağlı ruhanı axtarışları və peyğəmbərlik məramlarını burada sezmək mümkün olur.

Cahiliyyət ərəblərinin mistik həyatı ilə yaxından tanışlıq zamanı məlum olur ki, İslam təsəvvüfünün bir sıra rüşeymləri məhz bu zəmində cücərmiş, artıq o dövr ərəbləri arasında **zöhd, xəlvət, samt** təcrübədən keçirilmişdir. Bizim fikrimizcə, sufizmdə geniş yer tutan quşlarla bağlı simvolika islamaqədərki ərəb quş falından (**iyafət)**, sufi poeziyasındakı camalın vəsfi isə qədim ərəb qiyafət və firasət (fizioqnomika) elmindən bəhrələnmişdir. Əgər cahiliyyət ərəbi insan simasında onun xarakter və taleyini görürdüsə, islam mistikləri gözəl simada həm bu taleyin yazıldığı müqəddəs kitabla bağlı mənaları, həm də haqqın təcəllisini görmüşlər. Eləcə də təsəvvüfdə bəzən atribut səciyyəsi kəsb edən **xirqə, əsa, yay** və sairədən də cahiliyyət ərəblərinin mistik təcrübəsində geniş istifadə olunmuşdur. Ayrıca olaraq, sufizmdə özəl mahiyyət daşıyan **kəramət** hadisəsi də, əgər orta əsr ərəb mənbələrinə inansaq, cahiliyyət ərəbləri arasında rast gəlinən hal olub. Burada gerçək yuxular, dəvələrin ayaqları altında fəvvarə vuran bulaqlar, heyvanların və quşların dilini anılama, bir baxışla vəhşı heyvanları məhv etmə və s. möcüzəli hadisələr baş vermişdir.

Hər şeydən öncə islamaqədərki cəmiyyətdə monoteizmin ruhani həyatın əsas amili olmaması, həm də bütpərəstliyin vəhdaniyyəti – təkallahlılığı üstələməsi buradakı mistik təmayyüllərə də təsir göstərirdi. Bütpərəst ərəblər arasında müxtəlif fövqəltəbii qüvvələrlə yaxinlığa can atılmasının İslam təsəvvüfünə xas əsas cəhəti - Vahid olan Allah-Təalaya qovuşmaqla bağlı cəhdləri üstələdiyini görürük. Əldə olan materialların qıtlığı burada “sufizmi asketizmdən fərqləndirən ilahi eşq” (ifadə Annemari Şimmelin kitabında anılmışdır) anlamının olub-olmaması barədə qəti fikir söyləməyə də imkan vermir. Cahiliyyət dövrü mistikasının daha çox okkultizmlə səsləşməsi sezilir. Özündə həm də okkult bilikləri cəmləşdirən təsəvvüfdə ilahi sehrkarlığın ən yüksək mərhələsi Allah-təalanın ancaq peyğəmbərlərə ağah olan “İsmi-Əzəmini” bilmək sayılmışdır. Sufilər bu adı bilməklə istənilən möcüzə yaratmağı, hətta ölü diriltməyi belə mümkün sayırdılar [17, 137] Digər tərəfdən, fövqəltəbii qüvvələrə yaxınlaşmaqda əsas məqsəd onların köməyi ilə gələcəkdən xəbər bilməkdir. Bu zaman cahiliyyət ərəbini düşündürən cismani, maddi həyatın gələcəyi idi. İslam mütəsəvviflərini gayğılandıran isə ruhi varlığın gələcəyi olmuşdur. Tək olan uca Allaha yaxinlaşmaq cəhdləri, bu yolda müəyyən mistik təcrübə və sınaqlardan keçilməsi isə, o dövr ərəbləri arasında rəvac tapmiş monoteist dinlərlə bağlı cərəyanlarda, xüsusilə hənifler və xristianlar arasında özünü göstərirdi.

Cahiliyyət ərəblərinin mistik əhval-ruhiyyəyə köklənməsnə bir sıra amillər səbəb olmuşdur. Bir qədər şablon səslənsə də, burada ağır həyat tərzinin, hər zaman ölüm, fəlakət, bədbəxtlik təhlükəsinin müəyyən rolu olduğu, lakin bunun yeganə amil olmaması qəbul edilməlıdir. Dozi bu məqamda ərəb təbiətinin insan psixikasına güclü təsir göstərən cəhətlərini vurğulayıb, bəzən

həftələrlə uzsuz-bucaqsız səhralarda dolaşan, aclıq, susuzluq çəkən bədəvi ərəbin gözünə fövqəltəbii qüvvələrın görünməsini, saf, təmiz səhra havasının, şəffaf, işıqlı görüntülərin onun təxəyyülünə güclü təsir göstərməsini bildirir [10, 4].

Luis Speys isə ümumiyyətlə mistik nurlanma və ona aparan yol anlamı ilə bağlı təsəvvürlərin çətin keçilən yollari – səhralar, bataqlıqlar və s. olan xalqlar arasında daha çox rəvac tapmasını bildirir [14, 77]. Təsadüfi deyil ki, sufi ədəbiyyatında ucsuz bucaqsız, bomboş səhra ilə mistik kamilləşməyə aparan yolun ən çətin hissəsi ifadə edilmişdir [9, 401]. Ərəb sufi poeziyasının bir çox rəmz və simvollarının qədim ərəblərin səhra həyatı ilə bağlılığı da tədqiqatçıların diqqətindən yayınmamışdır. Tərk edilmiş obanın qalıqları insanın cismanı xüsusiyyətlətini, tərk edilmiş oba önündə dayanma sufi təriqətindəki məqamları, sarvanla Allahın peyğəmbəri və s. nəzərdə tutulmuşdur [19, 364-374].

Təbii ki, ərəblər o dövrdə Yaxın və Orta Şərqdə geniş yayılmış dini-mistik və fəlsəfi baxışlardan kənarda qala bilməzdilər. Ən azı ona görə ki, onlar o dövrün xaldey,akkad, babil, gibti, fars, yunan və s. xalqları ilə sıx təmasda, iqtisadı və ticərət əlaqələrində idilər. Rezvana görə, o dövrdə karvan və gəmilər Ərəbistana yalnız ticarət malları deyil həm də kitab, ideya və dini təlimlər daşıyırdı [17, 24; 20, 56, 60, 61, 64] Buna görə də islamaqədərki ərəblərin Misir və Babil misteriyalarından təsirlənməsini zənn etmək olar. Sami xalqlarının bir-birini asanlıqla anlaması da onlar arasındakı dini-mistik inteqrasiyanı gücləndirirdi. Ərəblər, xaldeylər, finikiyalılar, assuriyalılar, həbəşlər və gibtilər asanlıqla, tərcüməçiyə ehtiyac olmadan bir-birləri ilə ünsiyyətə girirdilər [6, 15].

Əgər qədim yunan fəlsəfi əsərlərinin İslamdan qabaq suriyalılar tərəfindən siryani dilinə tərcümə olunmasını [9, 24] da nəzərə alsaq, onda ərəblərin mistik təmayüllü fəlsəfəsi cərəyanlarla (pifaqorçuluq, neoplatonizm. qnostisizm) islamdan öncə, azacıq da olsa, tanışlığını ehtimal edə bilərik. Burada qədim yunan filosoflarının həyatından bəzi məqamları da xatırlamaq yerinə düşər. Pifaqorun bir müddət bir ərəb hökmdarının yanında yaşaması bildirilir. Digər mistik təmayüllü filosofun - Posidoninin “ərəb rulu” bir filosof olması O. Şpenqlerin diqqətini cəlb etmişdir [11, cild 2, 202-203] Neoplatonizmin banisi sayılan Plotinin tələbələrindən biri isə ərəb olmuşdur. Zeyd (və yaxud Seyf) əl-Ərəbi kimi tanınan bu gənc filosofa Plotinin xüsusi hüsn-rəğbəti olmuşdur [11, cild 2, 467-468]. Filştinski göstərir ki, neoplatoniklərin fəlsəfəsi Yaxın Şərqdə xristian libasına bürünmüş şəkildə hələ İslamdan əvvəl geniş yayılmışdır [19, 321].

Cahiliyyət ərəblərinin mistisizmə meylinin əsas amillərindən biri kimi, o dövrdə ərəblər arasında xristianlıq və yəhudilik kimi dinlərin Ərəbistandakı təmsilçilərinin ortodoks cərəyanı deyil, bu dinlərin mühitində yaranmış və

bəzən də rəsmi ideologiya tərəfindən təqib olunan, çox zaman da mistisizmə meyli ilə seçilən təriqətlərin nümayəndələri olması faktı nəzərə alınmalıdır. Poma imperiyasından qaçaq düşmüş yəhudilərin və müxtəlif sektalara mənsub olan xaçpərəst rahiblərin fərqli dini məsələlər barədə öz aralarında apardıqları mübahisələr Quranda da əksini tapıb [Məryəm, 37] Bu onların həm dövrün dini-mənəvi həyatında passiv seyrçilər olmayıb fəal iştirak etmələrinə, öz baxışlarını yaymaqda maraqlı olmalarına dəlalət edir.

İ.M.Filştinskinin sufilər haqqında söylədiyi fikirləri biz cahiliyyət dövrünün ərəb mistiklərinə də aid edə bilərik: "Hər bir mistık kimi, onlar da insanın İlahi Varlıqla birbaşa təmasına və Ona qovuşmanın mümkünlüyünə inanırdılar. Onlar bu qovuşmanın yolunu mənəvi kamilləşmədə və onların ekstaz halına yaxınlaşmasına kömək edən və mistik bir nurlanmaya gətirib çıxaran müəyyən psixi təcrübələrdə görürdülər" [19, 318].

**3.Kahinlik təsisatı və mistik təbabət**

Cahiliyyət dövründə fövqəltəbii qüvvələrlə təmas kahinlik təsisatı ilə bağlı idi. Ərəblər arasında bu təsisatı geniş yayılmışdı. Kahinlər fizioqnomika və yuxu yozumu kimi okkult elmlərdə məharət göstərirdilər. İbn Xəldun göstərir ki, əgər kahinlər peyğəmbərlərin zamanında yaşasaydılar, onlar nübüvvətin həqiqiliyini hamıdan yaxşı anlayardılar. (Buna misal olaraq Misir sehrbazlarının həzrəti Musaya iman gətirməsini göstərə bilərik), çünki hər bir insana gerçək bir yuxu nəsib olduğu kimi, kahinlərə də nübüvvətlə bağlı güclü intuisiya verilmişdir. Bu yerdə Satih, Şıqq kimi kahinlərin Məhəmməd Peyğəmbərin zühuru barədə qabaqcadan xəbər verməsini bir daha xatırlamaq istərdik. Kahin özünün də yaxşı anladığı bu həqiqəti ancaq o zaman inkar edir ki, peyğəmbərlik iddiasına düşmüş olsun. Üməyyə ibn Əbis-Salt, ibn Səyyad, Müseylimə məhz belə bir iddiada olduğundan Məhəmməd peyğəmbərin nübüvvətini danmışlar. Ancaq iman üstün gəlib bu cür xəyalları onların başından çıxardıqda həmin kəslər ən gözəl bir tərzdə iman gətirirlər. Buna misal olaraq Tuleyhə əl-Əsədinin, Səvad ibn Qaribin, İslama dönüşünü göstərə bilərik. İbn Xəldun onların fütuhatdakı rolunu da qeyd etməyi unutmur [2, 177-178].

Digər xalqlarında olduğu kimi, ərəblərdə də mistik təbabət inkişaf etmişdi. Buna görə də, cahiliyyət ərəbləri xəstələnərkən kahinə müraciət edirdilər. Circi Zeydan bildirir ki, ilk öncə təbiblik edən xaldey kahinləri olmuş, sonra başqa xalqlar, o cümlədən ərəblər bu sənəti onlardan əxz etmişlər. Kahinlər xəstələri sehr, cadu, qurban kəsmə, dua və s. ilə müalicə edirdilər. Qeyd edək ki, Circi Zeydan ərəblərdə təbabətin iki növü olduğunu bildirir: mistik təbabət, həqiqi təbabət. Ərəblərin məşhur həkimi Haris ibn əl-Kildənin elmi əsaslara söykənən tibbi biliyi bu gün belə öz əhəmiyyətini itirməmişdir [7, cild 1, 210] Təbiblər bir çox fəlakətlər kimi xəstəliyin səbəblərini də şər qüvvələrində görürdülər.Ərəb dilində ruhi xəstələrə "məcnun" (cinli) deyilməsi də bununla

əlaqədar idi. Cinin bədəndən çıxarılması üçün xəstəyə dağ basılması isə yalnız ərəblərdə deyil, bir çox xalqlar arasında geniş yayılmışdı. Bu şərr qüvvələrə qarşı odun təmizləyici qüvvəsi ilə bağlı inamdan doğurdu. Onları qovmaq üçün bütlərin üzərindən tilsimlər asır, xəstə üçün dualar oxuyurdular [7, cild1, 197]. Maspero bildirir ki, qədim xalqların bu cür “müalicə” üsulu əsil xəstəliyi aradan qaldırmasa da hər halda xəstənin qorxu-hürküsünü aparırdı [15, 74]. Bəzi heyvanları cinlərlə əlaqələndirən ərəblər məhz həmin heyvanlarla bağlı tilsimlərdən istifadə edirdilər. Qeyd etmək istərdik ki, qədim xalqların mistik təbabətə belə önəm verməsi də Sufi ədəbiyyatında birbaşa ruhi təbabətlə bağlı fikirlər doğurur. N.Göyüşov bildirir ki, irfani poeziyadakı həkim, təbib obrazları əslində mənəvi mürşid və yolgöstərəndir [1].

**4.Ekstispisi**

Ərəblərin Misir, Yaxın Şərq və Hindistan arasındakı ticarət yollarının qovşağında yaşaması və bu ticarətin fəal iştirakçısı olması onların mədəni inteqrasiyasını asanlaşdırır, kənar sivilizasiyalarla mübadiləsinə təkan verirdi. Digər tərəfdən, ərəb qəbilələrinin digər sami xalqları ilə ünsiyyət zamanı dil problemlərinin olmaması, onlarla asanlıqla danışıb bir-birlərini anlaması da bu fikir mübadiləsinin güclənməsinə təsir göstərirdi. Məhz buna görə də, heyvanların daxili orqanları əsasında söylənilən öncəgörmənin (ekstispisi) ərəblər arasında rəvac tapması təbii idi. Bu cür öncəgörmə Çində və Usaq Şərqi Asiyada lap qədim dövrlərdən məşhur idi. Eləcə də Mesopotamiyada bu fal növü geniş yayılmışdı. Şumerlər bu praktikadan baş kahinin seçilməsi zamanı istifadə edir, qurban kəsilən heyvanların daxili orqanlarına əsasən tanrıların bu məsələ ilə bağlı rəyini müəyyənləşdirirdilər. Ekstispisi xaldeylər arasında da rəvac tapmış bir üsul idi. Bir xaldey yazılı abidəsində Ay tanrısının məbədgahı üçün baş kahinin məhz bu cür seçilməsi bildirilir [16, 169]. Bu fal növündə kahinin vəzifəsi tanrılarla kontakta girib lazımı xəbərləri qurban kəsiləcək heyvanın daxili üzvlərinə yazmasını onlardan xahiş etməsi idi.

Ərəblərin də belə öncəgörmə təcrübəsindən istifadə etməsi məlumdur. Ərəblər lap qədim zamanlardan qara ciyərə böyük əhəmiyyət verirdilər. Qara ciyərin qara rəngli olması, onun nifrət və qəzəbdən qaralması fikrinə gətirib çıxarmışdır. Ərəblər qurban kəsilən heyvanların canvermə halında çıxardığı səslərə xüsusi önəm verib bununla bağlı öncəgörmələr edirdilər. Təəssüf ki ərəblərin ekstispitsi ilə bağlı öncəgörmələrini əks etdirən məlumatların çoxu İslama zidd təcrübə kimi itib-batmış olduğundan, geniş müqayisəli təhlillər aparmağımız mümkün deyil. Bir sıra mənbələrdə ekstispitsi ilə bağlı ancaq qısa məlumat verilir. Bu barədə rast gəldiyimiz yeganə az-çox əhatəli xəbər isə İbn Hişamın məşhur “Sirə”sində əks olunub:

“*Ömər ibn əl-Xəttab adamlara söhbət edib bildirdi ki, İslamdan bir az öncə Qureyş əhlindən bir kişi dana qurban kəsirdi. Biz dayanıb qurban ətinin bölünməsini gözləyirdik ki, öz payımızı alaq. Bu zaman dananın*

*qarnından qəribə səslər gəldi. Hələ mən bundan daha təsirli səs eşitməmişdim: "Ya qanına boyanmış Zərih, yaxşı bir iş var. Bir kişi qışqırıb "lə İləhə illəllah" qeyə haray salacaq*" [3, 224].

Yuxarıdakı parçada qurban kəsilməsi və öncəgörmələrlə bağlı kahinin roluna toxunulmasa da, hər halda bu rolu təsəvvür etmək çətin deyil. Burada diqqəti cəlb edən əsas cəhət heyvanların daxili orqanlarının quruluşuna deyil, onlardan çıxan səsə fikir verilməsidir. Bu xəbər özü ilahi kəlamın – loqosun İslamdan bir qədər öncəki fikir sistemində nə qədər mühüm yer tutmasına dəlalət edir. Sabilərin qurban kəsilən xoruzun çabalamarı ilə bağlı öncəgörmələrində isə biz hərəkət amilinin – can verən xoruzun ölümqabağı çabalamalarının öndə olduğunu görürük. Ərəb kahinlərinin bu cür öncəgörmələrdə səs mistikasına və hərəkət amilinə üstünlük vermələri onların bu sahədə daha irəli getmələrinə dəlalət edir. Sonradan İslam təsəvvüfündə də səs mistikası və ritmik hərəkətlər bir sıra təriqətlərdə mühüm yer tutmuşdur.

Digər tərəfdən, maraqlı bir məqam kimi heyvanın can vermə halında olması da diqqəti cəlb edir. Bu elə bir haldır ki, nə ruh bədəni tam tərk etmədiyindən, sanki iki dünya arasında aralıq vəziyyətində dayanır və ona görə də insanın yaşadığı real aləmlə ruhlar dünyası arasında bir növ mediator rolu oynayır. İbn Xəldun göstərir ki, qətlə yetirilən insanların başları üzüldükdə də onların dilində öncəgörmələr səslənir. Buna görə də, bəzi zalım hökmdarların onları maraqlandıran məsələlərdən qabaqcadan xəbər tutmaq üçün məhbusları qətlə yetirmək adəti olmuşdur [2, 190].

## 5.Nəticə

Qədim ərəb cəmiyyətində mistik elementlər yalnız yuxarıda saydıqlarımızla məhdudlaşmır. Ərəblərin yuxu yozumu, astrologiya, avquriya ilə bağlı da təcrübələri olub ki, bunlar ayrıca bir araşdırma tələb edir.

Okkult elmlər, insanların fövqəltəbii qüvvələrlə təmasa can atması, öncəgörmələr etməsi hələ təsəvvüf deyil, amma bu təcrübələr mistik elementlər olaraq İslam təsəvvüfünün zəminini hazırlamışdır. Bu, Sufizmin mürəkkəb nəzəri konsepsiyalarından uzaq, bəsit, sadə təcrübələrdir. Burada hələ nə Həllacın, Nəsiminin "Ənə l-həqq"ini, nə də ibn Ərəbinin vəhdət əl-vücudunu görürük. Bununla belə, sufizmin xalq İslamı ilə bağlı tərəfləri – kəramətlər, öncəgörmələr, pəhrizkarlıq, yuxu yozumları bir sıra cəmiyyətlərdə olduğu kimi, Cahiliyyət ərəbləri arasında da özünə yer etmişdir.

## 6.ƏDƏBİYYAT

1. Göyüşov, N. C. (1997). *Füzulinin sənət və mərifət dünyası*. Bakı–Tehran: "Sürüş" Beynəlxalq nəşriyyatı.
2. İbn Xəldun. (1961). *əl-Müqəddimə* (Cild I). Beyrut: Məktəbətul-mədrasəti va dəril-kitəbil-lubnəniyyi.

**3.** İbn Hişam. (1936). *Əs-Sira Ən-Nəbəviyyə* (Cild 1). Misir: Mətbəətu Mustafa əl-Bani əl-Hələbi.
**4.** Schimmel, A. (2003). *Mystical Dimensions of Islam*. Lahore: Sang-e-Meel Publications.
**5.** Shah, I. (1994). *Sufizm*. Moskva: Klyshnikov, Komarov i K.
**6.** Zeydan, C. (1971). *Islam Medeniyeti Tarihi*. İstanbul: Doğan Güneş Yayınları (mütərcim: Zeki Megamiz).
**7.** Zeydan, C. (n.d.). *Tarixu ədəbil-luğatil-ʿarabiyyə*. əl-Qahirə.
**8.** Бартольд, В. В. (1966). *Ислам*. В: *Сочинения*, т. VI. Москва: Наука, Главная редакция восточной литературы.
**9.** Бертельс, Е. Э. (1965). *Суфизм и суфийская литература*. В: *Избранные труды*. Москва: Наука.
**10.** Дози, Р. (1904). *Очерк истории ислама* (Пер. с фр. В. И. Каменского). Санкт-Петербург.
**11.** Кисил, В. Я. & Рибери, В. В. (2002). *Галерея античных философов* (Т. II). Москва: Гранд.
**12.** Кныш, А. (1984). *Некоторые проблемы изучения суфизма*. В: *Ислам. Религия, общество, государство*. Москва: Наука.
**13.** Кныш, А. (2004). *Мусульманский мистицизм: Краткая история*. Москва–Санкт-Петербург: Диля.
**14.** Спенс, Л. (2007). *Таинства Египта*. Москва: Центрполиграф.
**15.** Масперо, Г. (1911). *Древняя история народов Востока*. Москва.
**16.** Оппенхейм, А. (1990). *Древняя Месопотамия* (Пер. М. Н. Ботвинника). Москва: Наука, Главная редакция восточной литературы.
**17.** Резван, Е. А. (2001). *Коран и его мир*. Санкт-Петербург: Петербургское Востоковедение.
**18.** Тримингем, Дж. С. (1989). *Суфийские ордены в исламе*. Москва: Наука, Главная редакция восточной литературы.
**19.** Фильштинский, И. М. (1991). *История арабской литературы*. Москва: Главная редакция восточной литературы.
**20.** Шумовский, Т. А. (1964). *Арабы и море: (по страницам рукописей и книг)*. Москва: Наука.

## REFERENCES

**1.** Goyushov, N. C. (1997). *The world of art and enlightenment of Fuzuli*. Baku–Tehran: Surosh International Publishing House. (in Azerbaijani)
**2.** Ibn Khaldun. (1961). *Al-Muqaddimah* (Vol. 1). Beirut: Maktabat al-Madrasati wa Dar al-Kitab al-Lubnani. (in Arabic)
**3.** Ibn Hisham. (1936). *Al-Sirah al-Nabawiyyah* (Vol. 1). Egypt: Matbaat Mustafa al-Babi al-Halabi. (in Arabic)

4. Schimmel, A. (2003). *Mystical dimensions of Islam*. Lahore: Sang-e-Meel Publications. (in English)
5. Shah, I. (1994). *Sufism*. Moscow: Klyshnikov, Komarov and Co. (in Russian)
6. Zeydan, C. (1971). *History of Islamic civilization*. Istanbul: Dogan Gunes Yayınları (Transl. by Zeki Megamiz). (in Turkish)
7. Zeydan, C. (n.d.). *History of Arabic language literature*. Cairo. (in Arabic)
8. Bartold, V. V. (1966). *Islam*. In *Collected works* (Vol. 6). Moscow: Nauka, Main Editorial Board of Oriental Literature. (in Russian)
9. Bertels, E. E. (1965). *Sufism and Sufi literature*. In *Selected works*. Moscow: Nauka. (in Russian)
10. Dozy, R. (1904). *An outline of the history of Islam* (Transl. by V. I. Kamensky). Saint Petersburg. (in Russian)
11. Kisil, V. Ya., & Riberi, V. V. (2002). *Gallery of ancient philosophers* (Vol. 2). Moscow: Grand. (in Russian)
12. Knysh, A. (1984). *Some problems in the study of Sufism*. In *Islam: Religion, society, state*. Moscow: Nauka. (in Russian)
13. Knysh, A. (2004). *Muslim mysticism: A brief history*. Moscow–Saint Petersburg: Dilya. (in Russian)
14. Spence, L. (2007). *The mysteries of Egypt*. Moscow: Tsentrpoligraf. (in Russian)
15. Maspero, G. (1911). *Ancient history of the peoples of the East*. Moscow. (in Russian)
16. Oppenheim, A. (1990). *Ancient Mesopotamia* (Transl. by M. N. Botvinnik). Moscow: Nauka, Main Editorial Board of Oriental Literature. (in Russian)
17. Rezvan, E. A. (2001). *The Quran and its world*. Saint Petersburg: Petersburg Oriental Studies. (in Russian)
18. Trimingham, J. S. (1989). *The Sufi orders in Islam*. Moscow: Nauka, Main Editorial Board of Oriental Literature. (in Russian)
19. Filshtinskiy, I. M. (1991). *History of Arabic literature*. Moscow: Main Editorial Board of Oriental Literature. (in Russian)
20. Shumovskiy, T. A. (1964). *The Arabs and the sea (from the pages of manuscripts and books)*. Moscow: Nauka. (in Russian)